# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi və “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. “Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 5, maddə 250 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin

hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 iyun 2024-cü il

№ 299

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 13 iyun
tarixli 299 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin

## NÜMUNƏVİ NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Bu Nümunəvi Nizamnamə "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək, habelə dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrinin (bundan sonra – müəssisə) fəaliyyətini tənzimləmək üçün onların nizamnamələrinin hazırlanması və həmin müəssisələrin dövlət qeydiyyatından keçirilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Nümunəvi Nizamnamə hər bir müəssisə üçün fərdi nizamnamənin hazırlanmasında əsas hesab olunur.

1.3. Müəssisə ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olub, "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq bu Nümunəvi Nizamnamənin 3.7-ci və 3.10-cu bəndlərində qeyd olunan yetkinlik yaşına çatmayanların ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə təhsilini, həmçinin onların davranışının korreksiyasını və cəmiyyətə uyğunlaşmasını, o cümlədən onların tibbi-pedaqoji reabilitasiyası, habelə psixoloji reabilitasiyasını və psixoloji korreksiyasını həyata keçirən publik hüquqi şəxsdir.

1.4. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət tərəfindən müəssisəni Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) və ya dövlət adından yaradılan publik hüquqi şəxs yaradır.

1.5. Müəssisə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Publik hüquqi şəxslər haqqında", "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nümunəvi Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərar və sərəncamlarını, habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, tabe olduğu dövlət orqanının (qurumunun) əmr və sərəncamlarını, öz nizamnaməsini rəhbər tutur.

1.6. Müəssisənin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, bank hesabı, üzərində tabe olduğu dövlət orqanının (qurumunun) adı, həmçinin öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Müəssisə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. Müəssisənin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

1.8. Müəssisə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.9. Qanuna uyğun olaraq müəssisənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Müəssisə məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.10. Müəssisə "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq akkreditasiya edilir.

1.11. Müəssisədə siyasi partiyaların və dini qurumların strukturlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

1.12. Müəssisənin nizamnaməsində onun açıq və ya qapalı tipli olmasını göstərən adı və yerləşdiyi ünvan qeyd olunur.

## 2. Müəssisənin fəaliyyət istiqamətləri

2.1. Müəssisənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə ümumi təhsil proqramlarının həyata keçirilməsi;

2.1.2. yetkinlik yaşına çatmayanların davranışının korreksiyasının və cəmiyyətə uyğunlaşmasının təmin edilməsi;

2.1.3. yetkinlik yaşına çatmayanların tibbi-pedaqoji reabilitasiyası, habelə psixoloji reabilitasiyası və psixoloji korreksiyasının təşkil edilməsi və onlarla fərdi profilaktik işin aparılmasında iştirak edilməsi;

2.1.4. müəssisəyə göndərilən və qəbul olunan yetkinlik yaşına çatmayanların müvafiq dövlət təhsil standartlarına uyğun olaraq təhsilinin təşkil edilməsi.

## 3. Müəssisənin fəaliyyətinə və şagirdlərin qəbuluna dair tələblər

3.1. Müəssisə şagirdlərin sayı 25-dən az olmamaqla oğlan və qızlar üçün ayrılıqda yaradılır. Müəssisədə sinif (qrup) şagirdlərin sayı 10 (on) nəfərdən artıq olmamaq şərtilə təşkil edilir.

3.2. Müəssisə şagirdlər üçün yaşayış və tədris binalarına, pedaqoji, inzibati və xidmət heyəti üçün otaqlara, tibb və psixoloq kabinetlərinə, yardımçı təsərrüfata, iaşə avadanlığına, kluba, idman şəhərciyinə, təcrübə sahəsinə, istehsalat emalatxanalarına, 1-3 nəfər üçün nəzərdə tutulmuş yataq otaqlarına, müəyyən edilmiş normalara müvafiq olaraq ayrı-ayrı kabinetləri olan sanitariya qovşaqlarına və müəssisənin fəaliyyəti üçün zəruri olan digər otaqlara malik olmalıdır.

3.3. Müəssisənin şagirdlərinin təhsil prosesi, davranışının korreksiyası, tibbi-pedaqoji reabilitasiyası, psixoloji reabilitasiyası və psixoloji korreksiyası ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

3.4. Şagirdlərin müəssisədə saxlanılması, təhsili və tərbiyəsi qaydası onların yaşı, cinsi, habelə psixoloji vəziyyəti və səhhəti nəzərə alınmaqla müəyyən edilir. Bu zaman fərdi sosial-psixoloji diaqnostika əsasında psixokorreksiya işi üçün şəraitin yaradılması, sağlamlaşdırıcı tərbiyə tədbirləri sisteminin, ictimai faydalı işlə məşğulluğun, şagirdlərin asudə vaxtı da daxil olmaqla günün səmərəli bölgüsünün təşkili və şagirdlərin neqativ hallardan maksimum müdafiəsi müəssisə tərəfindən təmin edilir.

3.5. Müəssisədən buraxılan şagirdlər əvvəllər təhsil aldıqları təhsil müəssisəsində təhsillərini davam etdirmək hüququna malikdirlər.

3.6. Şagirdlər müəssisədən buraxılandan sonra valideynlərinin və ya digər qanuni nümayəndələrinin yanına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar isə onlar üçün nəzərdə tutulmuş müvafiq müəssisələrə göndərilirlər. Müəssisədən buraxılandan sonra şagirdin valideynlərinin və ya digər qanuni nümayəndələrinin yanına göndərilməsi mümkün olmadığı halda və ya onun əvvəlki yaşayış yeri üzrə yaşaması və tərbiyə alması üçün müvafiq şərait yoxdursa Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və şagirdin yaşayış yeri üzrə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya (bundan sonra – Komissiya) onun yerləşdirilməsi üçün tədbirlər görürlər.

3.7. Qapalı tipli müəssisələrə 11 yaşından 18 yaşınadək aşağıdakı yetkinlik yaşına çatmayanlar məhkəmənin qərarına əsasən göndərilirlər:

3.7.1. ağır və ya xüsusilə ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanlar "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun III fəslində nəzərdə tutulmuş qaydada;

3.7.2. cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmış az ağır cinayət törədən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 89.2-ci maddəsinə uyğun olaraq məhkəmə tərəfindən cəzadan azad edilən yetkinlik yaşına çatmayanlar Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada.

3.8. Şagirdlər qapalı tipli müəssisədə, bu Nümunəvi Nizamnamənin 3.7-ci bəndi ilə müəyyən edilmiş yaş həddi nəzərə alınmaqla 3 (üç) ilədək saxlanılırlar. Qapalı tipli müəssisənin rəhbərliyi şagirdin qəbulundan sonra 2 (iki) gün müddətində onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə, şagirdin yaşadığı yer üzrə daxili işlər orqanına, habelə onun əvvəlki təhsil müəssisəsinə, Nazirliyin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq yerli bölməsinə bu barədə yazılı məlumat verir.

3.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 11 noyabr tarixli 207 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yetkinlik yaşına çatmayanların qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində saxlanılmasına yol verməyən xəstəliklərin siyahısı”nda göstərilən xəstəliyə tutulmuş yetkinlik yaşına çatmayanlar qapalı tipli müəssisələrdə saxlanıla bilməzlər.

3.10. Komissiyanın qərarı ilə açıq tipli müəssisələrə 8 yaşından 18 yaşınadək aşağıdakı şəxslər qəbul edilirlər:

3.10.1. 14 yaşına çatmış yetkinlik yaşına çatmayanların, onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə xüsusi pedaqoji yanaşma tələb olunan yetkinlik yaşına çatmayanlar;

3.10.2. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət əlamətləri olan ictimai təhlükəli əməl törətmiş, lakin cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan Respublikasının cinayət qanunvericiliyində nəzərdə tutulmuş yaş həddinə çatmamış yetkinlik yaşına çatmayanlar;

3.10.3. valideynlərinin və ya digər qanuni nümayəndələrinin razılığı ilə çətin tərbiyə olunan hesab edilmiş yetkinlik yaşına çatmayanlar;

3.10.4. müxtəlif hüquqpozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayan yetkinlik yaşına çatmayanlar.

3.11. Açıq tipli müəssisə şagirdin reabilitasiyası üçün şərait yaratmadıqda, habelə onun xidməti səmərə vermədikdə valideynlər və digər qanuni nümayəndələr bu müəssisənin xidmətlərindən imtina etmək hüququna malikdirlər.

## 4. Müəssisənin vəzifələri və hüquqları

4.1. Bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq müəssisənin vəzifələri aşağıdakılardır:

4.1.1. yetkinlik yaşına çatmayanların tərbiyəsi və təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

4.1.2. yetkinlik yaşına çatmayanların tibbi-pedaqoji reabilitasiyasını, habelə psixoloji reabilitasiyasını və psixoloji korreksiyasını təşkil etmək və onlarla fərdi profilaktik işlərin aparılmasında iştirak etmək;

4.1.3. yetkinlik yaşına çatmayanların hüquqlarının və qanuni mənafelərinin qorunmasını təşkil etmək, onlara tibbi xidmətin göstərilməsini təmin etmək;

4.1.4. inkişafında pozuntular olan və ya təhsildə çətinlik çəkən yetkinlik yaşına çatmayanlara sosial-psixoloji və pedaqoji yardım göstərmək;

4.1.5. yetkinlik yaşına çatmayanlarda cəmiyyətə və qanunlara hörmət ruhunda davranışın formalaşdırılmasına yönəldilmiş proqram və metodikaların həyata keçirilməsi üzrə tədbirlər görmək;

4.1.6. müəssisədə şagirdlərin həyat və sağlamlığı üçün təhlükəsiz təhsil şəraiti yaratmaq;

4.1.7. şagirdlərin ümumi təhsilin dövlət standartlarına uyğun olaraq təhsil proqramları üzrə zəruri bilik və bacarıqlara yiyələnməsini təmin etmək;

4.1.8. hər bir şagirdin intellektual, mədəni və mənəvi inkişafını, təhsilalma tələblərini ödəmək;

4.1.9. təlim-tərbiyə və islah olunma prosesini yüksək səviyyədə təşkil etmək və onun monitorinqini həyata keçirmək;

4.1.10. şagirdlərin inkişafı, təlim nailiyyətləri, öyrənmə və islah olunma səviyyəsi barədə məlumatların uçotunu düzgün və vaxtında aparmaq;

4.1.11. sağlamlıq imkanları məhdud olan şəxslərin təhsilinin xüsusi təhsilin dövlət standartlarına uyğun təşkilini təmin etmək;

4.1.12. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etmək;

4.1.13. nitq pozuntusu olan şəxslərə kömək məqsədilə müəyyən edilmiş qaydada loqopedik xidmət təşkil etmək;

4.1.14. psixoloji-tibbi-pedaqoji komissiyaların qərarlarını icra etmək;

4.1.15. şagirdlərin sinifdən-sinfə keçirilməsini və yerdəyişməsini Nazirlik tərəfindən müəyyən edilmiş qaydaya uyğun həyata keçirmək;

4.1.16. şagirdlərin attestasiyasını (məktəbdaxili qiymətləndirilməsini) Nazirlik tərəfindən müəyyən edilmiş qaydada həyata keçirmək;

4.1.17. şagirdlərin peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”na uyğun olaraq peşəyönümü xidmətini təşkil etmək;

4.1.18. şagirdlərə idman, incəsənət və peşə məşğələlərinin həyata keçirilməsi üçün şərait yaratmaq;

4.1.19. müəssisədə idman seksiyaları, texniki və digər dərnəklər, həmçinin klublar yaratmaq;

4.1.20. təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək, habelə şagirdləri dərsliklərlə pulsuz təmin etmək;

4.1.21. şagirdlər üçün "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Uşaq hüquqları haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunlarına və müəssisənin nizamnaməsinə uyğun olaraq digər sosial müdafiə tədbirlərini həyata keçirmək;

4.1.22. bu Nümunəvi Nizamnamənin 6.15-ci bəndinə əsasən şagirdin reabilitasiya prosesinin dinamikasında müsbət nəticələr müəyyən edilərsə, müəssisənin yerləşdiyi ərazi üzrə Komissiyaya şagirdin müəssisədən vaxtından əvvəl buraxılması barədə təkliflə müraciət etmək;

4.1.23. müəssisədən buraxılmasına 2 (iki) ay qalmış şagirdin müəssisədən buraxılması haqqında bildirişin, şagird barəsində xasiyyətnamənin, habelə gələcəkdə onunla fərdi profilaktik işin aparılması barədə tövsiyələrin şagirdin yaşayış yeri üzrə Komissiyaya göndərilməsini təmin etmək;

4.1.24. müəssisədən buraxılan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş şagirdi işlə təmin olunanadək və ya gələcək təhsili ilə bağlı məsələlər həll edilənədək 3 (üç) ay ərzində müəssisədə yaşayış və yeməklə təmin etmək;

4.1.25. 16 yaşınadək şagirdlərin daimi yaşadıqları yerə müəssisənin işçisinin və yaxud valideynlərinin (qanuni nümayəndələrinin) müşayiəti olmadan getmələrinə yol verməmək;

4.1.26. şagird xəstələndikdə və ya vəfat etdikdə dərhal bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə, onlar olmadıqda isə şagirdin daimi yaşayış yeri üzrə Komissiyaya, müəssisənin olduğu və şagirdin yaşadığı ərazi üzrə daxili işlər orqanına məlumat verilməsini təmin etmək;

4.1.27. şagirdə fiziki, mənəvi və ya maddi zərər vurulduğu halda daxili işlər orqanlarına, müəssisənin olduğu yer üzrə Komissiyaya, şagirdin valideynlərinə (qanuni nümayəndələrinə) məlumat verilməsini və aparılan xidməti araşdırmanın nəticələrinə uyğun olaraq müvafiq tədbirlərin görülməsini təmin etmək;

4.1.28. şagirdin pozulmuş hüquqları barədə onun hüquq mühafizə orqanlarına və müvafiq Komissiyalara maneəsiz müraciət etməsi üçün şərait yaradılmasını təmin etmək;

4.1.29. müəssisənin işçiləri tərəfindən şagirdə mənəvi və ya fiziki zərər vurulması haqqında əsaslı şikayətlər daxil olduqda, həmin işçinin xidməti araşdırma başa çatanadək şagirdlə ünsiyyətdən kənarlaşdırılmasını təmin etmək;

4.1.30. şagird valideynləri və ya digər qanuni nümayəndələri ağır xəstə olduğu halda onlara baş çəkdikdə və ya onların vəfatı ilə əlaqədar dəfndə iştirak etdikdə və ya müəssisənin rəhbərliyinin qərarı ilə tətilə buraxıldıqda yol xərclərinin müəssisənin vəsaiti hesabına ödənilməsini təmin etmək;

4.1.31. şagirdlər tərəfindən müəssisənin nizamnaməsinə riayət edilməsinə nəzarət etmək, qanunazidd hərəkətlərə, müəssisənin nizamnaməsini dəfələrlə və kobud şəkildə pozduğuna görə şagirdə intizam tənbehi tədbirlərini (xəbərdarlıq elan edilməsi, direktorun əmri ilə töhmət verilməsi, habelə istirahət, səsvermə, iş günü hesab edilməyən bayram günlərində və ya ümumxalq hüzn günündə, tətil vaxtı müəssisənin hüdudlarından kənara çıxmasının qadağan edilməsi, açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsindən xaric edilməsi (şagirdin valideynləri və ya digər qanuni nümayəndələri və yaşadığı yer üzrə Komissiya məlumatlandırılmaqla) tətbiq etmək;

4.1.32. şagirdlərin əməyə və təhsilə vicdanlı münasibətinə, nümunəvi davranışına görə həvəsləndirici tədbirlər müəyyən etmək;

4.1.33. şagirdlərə qarşı fiziki və psixoloji zorakılıq metodlarının, onların yaşını nəzərə almayan, antipedaqoji xarakter daşıyan, şəxsiyyəti alçaldan tədbirlərin tətbiqinə, valideynləri və ya digər qanuni nümayəndələri ilə ünsiyyətdə olmalarının məhdudlaşdırılması və ya məhrum edilməsinə, qida normalarının azaldılmasına, şagirdlərin gəzintidən məhrum edilməsinə yol verməmək;

4.1.34. şagirdlərin icbari dispanserizasiyadan keçirilməsi prosesinə nəzarət etmək, onların fiziki və psixi zorakılığın bütün formalarından qorunması və zərərli vərdişlərdən çəkindirilməsi ilə bağlı zəruri tədbirlər görmək;

4.1.35. hər bir şagirdin, valideynin və ya digər qanuni nümayəndənin müəssisənin nizamnaməsi və dövlət akkreditasiyası haqqında sənədlə tanış olmasına şərait yaratmaq;

4.1.36. şagirdin valideyninə və ya qanuni nümayəndəsinə təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təlim nailiyyətləri, təhsilə marağı və davranışı haqqında məlumat vermək;

4.1.37. şagirdlərin qapalı tipli müəssisədə saxlanılması, saxlanılma müddətinin uzadılması, digər müəssisələrə göndərilməsi,

eləcə də onların vaxtından əvvəl müəssisədən azad edilməsi ilə bağlı "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görmək;

4.1.38. qapalı tipli müəssisələrin işçiləri tərəfindən şagirdlər barəsində fiziki qüvvənin tətbiqi ilə əlaqədar "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət olunmasına nəzarət etmək;

4.1.39. şagird müəssisənin hüdudlarını icazəsiz tərk etdikdə, bu barədə onun valideynlərinə və ya digər qanuni nümayəndələrinə, müəssisənin yerləşdiyi yer və şagirdin daimi yaşayış yeri üzrə daxili işlər orqanlarına məlumat verilməsini, onun axtarışı üçün tədbirlərin görülməsini təmin etmək, şagirdin həmin müəssisəyə qaytarılmasını müəssisənin yerləşdiyi yer üzrə Komissiya və şagirdin valideynləri və ya digər qanuni nümayəndələri ilə birlikdə həll etmək;

4.1.40. qapalı tipli müəssisədə şagirdlərin saxlanılması üçün xüsusi şəraiti təmin edən rejim xidməti (köməkçi xidmət) yaratmaq və aşağıdakıları təmin etmək:

4.1.40.1. müəssisənin ərazisinin və əmlakının mühafizəsini;

4.1.40.2. şagirdlərin saxlanılması üçün təhlükəsiz şəraitin yaradılmasını, onların mənfi təsirlərdən maksimum qorunmasını;

4.1.40.3. şagirdlərin müəssisənin ərazisini icazəsiz tərk etmələrini və ya kənar şəxslərin müəssisənin ərazisinə sərbəst daxilolma imkanlarını istisna edən müvəqqəti təcrid olunmanı;

4.1.40.4. yuxu üçün ayrılmış vaxt da daxil olmaqla şagirdlərə daimi nəzarətin həyata keçirilməsini;

4.1.40.5. şagirdlərin şəxsi müayinəsini, onlara gələn məktubların, bağlamaların və ya digər poçt göndərişlərinin (şagirdin müdafiəçisi və ya qanuni əsaslarla ona hüquqi yardım göstərən digər şəxslər ilə yazışmaları istisna olmaqla) nəzərdən keçirilməsini;

4.1.41. şagirdin həyat və sağlamlığına təhlükə yarandığı hallarda dərhal daxili işlər orqanlarına, müəssisənin olduğu yer üzrə Komissiyaya, Nazirliyə, habelə Nazirliyin Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq yerli bölməsinə məlumat verilməsini təmin etmək;

4.1.42. təhsilverənlərin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

4.1.43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi

təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilve-rənlərin sertifikatlaşdırma Qaydası"na uyğun olaraq təhsilverənlərin sertifikatlaşdırmada iştirakını təmin etmək;

4.1.44. ümumi təhsil üzrə müəyyən olunan məlumatları və hesabatları Nazirliyə təqdim etmək;

4.1.45. müəssisənin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

4.1.46. Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Siste-mi"nə qoşulmaq, rəqəmsallaşdırılmış idarəetmə funksiyalarının icrasını bu elektron informasiya sistemi vasitəsilə həyata keçirmək və sistemin müəyyən etdiyi əməliyyatların aparılması reqlamentinə riayət etmək;

4.1.47. "Şagird-məzun" dövlət elektron məlumat sisteminə qoşulmaq;

4.1.48. müəssisənin strukturunun təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

4.1.49. qanunvericilikdə nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək, müvafiq məsələlərə münasibət bildirmək;

4.1.50. "Təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq iaşə, tibbi və psixoloji xidmətləri təşkil etmək və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirmək;

4.1.51. maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində işlər görmək;

4.1.52. müəssisəyə ayrılan büdcə vəsaitindən, kredit, qrant, ianə və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.1.53. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

4.1.54. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

4.1.55. müəssisənin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

4.1.56. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə aidiyyəti üzrə məlumat vermək;

4.1.57. “Təhsil haqqında”, “Ümumi təhsil haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” və “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə müəssisənin nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.2. Öz vəzifələrini yerinə yetirmək üçün müəssisənin aşağıdakı hüquqları vardır:

4.2.1. “Təhsil haqqında” və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

4.2.2. “Təhsil haqqında” və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının qanunlarına və öz nizamnaməsinə uyğun olaraq filiallar, idarə və nümayəndəliklər açmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək, habelə təhsilin inkişafı və təkmilləşdirilməsi məqsədilə ictimai təşkilatlarla təhsil birlikləri, assosiasiyaları və ittifaqları yaratmaq, eləcə də bu kimi təşkilatlara üzv olmaq;

4.2.3. qapalı tipli müəssisələrdə saxlanılması qadağan edilən əşyaları aşkar etmək məqsədilə şagirdləri, onlara məxsus əşyaları, məktubları, bağlamaları və digər poçt göndərişlərini (şagirdin müdafiəçisi və ya qanuni əsaslarla ona hüquqi yardım göstərən digər şəxslər ilə yazışmaları istisna olmaqla), müəssisənin ərazisini, yataq, məişət və digər otaqları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müayinə etmək və bununla bağlı müvafiq akt tərtib etmək, eləcə də, aparılan müayinə zamanı qapalı tipli müəssisələrdə saxlanılmasına icazə verilməyən əşyaları götürmək;

4.2.4. şagirdlərin idman və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək məqsədilə məktəbdənkənar təhsil proqramları tətbiq etmək;

4.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

4.2.6. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

4.2.7. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.2.8. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

4.2.9. "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə müəssisənin nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Şagirdlərin vəzifələri və hüquqları

5.1. Müəssisədə şagirdlərin vəzifələri aşağıdakılardır:

5.1.1. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

5.1.2. müəssisənin nizamnaməsinin tələblərinə, daxili intizam qaydalarına əməl etmək;

5.1.3. müəssisənin ərazisini icazəsiz tərk etməmək;

5.1.4. pedaqoji işçilərə, pedaqoji prosesin digər iştirakçılarına, bütün insanlara hörmət və ehtiramla yanaşmaq;

5.1.5. dövlət, cəmiyyət, ailə və özü qarşısında öz məsuliyyətini dərk etmək;

5.1.6. digər şagirdlərlə təhsildə əməkdaşlıq etmək;

5.1.7. sağlam həyat tərzi keçirmək;

5.1.8. "Təhsil haqqında" və "Ümumi təhsil haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə müəssisənin nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

5.2. Müəssisədə şagirdlərin aşağıdakı hüquqları vardır:

5.2.1. müəssisədə yerləşdirilməsinin məqsədləri, müəssisənin hüquq və vəzifələri, o cümlədən onun daxili intizam qaydaları haqqında məlumat almaq;

5.2.2. həyat və sağlamlıq üçün təhlükəsiz şəraitdə, mənəvi-psixoloji cəhətdən sağlam pedaqoji mühitdə dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

5.2.3. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

5.2.4. müəssisənin təhsil infrastrukturundan istifadə etmək;

5.2.5. müəssisənin ictimai, sosial və mədəni həyatında iştirak etmək;

5.2.6. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş normalar əsasında pulsuz yeməklə, geyimlə və digər zəruri ləvazimatlarla təmin olunmaq;

5.2.7. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

5.2.8. hüquq və vəzifələri barədə məlumat almaq, şəxsi əşyalarından istifadə etmək;

5.2.9. sayı məhdudlaşdırılmadan telefon danışıqları və görüşlər vasitəsilə valideynləri (qanuni nümayəndələri) ilə əlaqə saxlamaq;

5.2.10. sayı məhdudlaşdırılmadan məktub və teleqramlar almaq və göndərmək, bağlama və digər poçt göndərişlərini almaq;

5.2.11. valideynləri və ya digər qanuni nümayəndələri vəfat etdikdə onların dəfnində iştirak etmək, valideynləri və ya digər qanuni nümayəndələri ağır xəstə olduqda isə onlara baş çəkmək;

5.2.12. hüquq və qanuni mənafelərinin qorunmasını tələb etmək;

5.2.13. şərəf və ləyaqəti aşağılayan, fiziki, mənəvi və psixoloji zorakılıq hallarından, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

5.2.14. müəssisədən buraxıldıqdan sonra əvvəllər təhsil aldıqları təhsil müəssisəsində təhsillərini davam etdirmək;

5.2.15. "Təhsil haqqında" və "Ümumi təhsil haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının qanunlarından irəli gələn, habelə müəssisənin nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## 6. Müəssisənin idarə olunması

6.1. Müəssisə aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri əsas tutulmaqla "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının qanunlarına və öz nizamnaməsinə uyğun olaraq idarə edilir.

6.2. Müəssisənin təsisçisinin səlahiyyətləri aşağıdakılardır:

6.2.1. müəssisənin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

6.2.2. idarəetmə orqanlarının yaradılması;

6.2.3. idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

6.2.4. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

6.2.5. inkişaf istiqamətlərinin müəyyən olunması və illik maliyyə hesabatlarının təsdiq edilməsi;

6.2.6. müəssisənin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi;

6.2.7. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), habelə publik hüquqi şəxsə aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faiz və daha çox hissəsini təşkil etdikdə) bağlanılmasına razılıq verilməsi;

6.2.8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

6.2.9. müəssisənin yenidən təşkili və ləğv edilməsi.

6.3. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Nazirlik və ya dövlət adından yaradılan publik hüquqi şəxs tabeliyində yaradılan müəssisənin nizamnaməsini təsdiq edir.

6.4. Müəssisənin nizamnaməsində dəyişikliklər həmin müəssisənin Pedaqoji Şurasında müzakirə edilir və bu Nümunəvi Nizamnamənin 6.3-cü bəndi ilə müəyyən edilmiş qaydada təsdiq olunmaq üçün aidiyyəti üzrə təqdim edilir.

6.5. Müəssisənin ali idarəetmə orqanı ictimai əsaslarla fəaliyyət göstərən Pedaqoji Şuradır. Pedaqoji Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi müvafiq əsasnamə və müəssisənin nizamnaməsi ilə müəyyən olunur.

6.6. Müəssisənin cari fəaliyyətinə direktor rəhbərlik edir.

6.7. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəssisənin direktorunu tabe olduğu dövlət orqanı (qurumu) vəzifəyə təyin edir və ya vəzifədən azad edir.

6.8. Direktor adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidir.

6.9. Direktorun fəaliyyətinin təşkili qaydası Nazirliyin təsdiq etdiyi əsasnamə və müəssisənin nizamnaməsi ilə müəyyən olunur.

6.10. Direktor:

6.10.1. müəssisənin cari fəaliyyətinə rəhbərlik edir və bu fəaliyyət üçün şəxsən məsuliyyət daşıyır;

6.10.2. müəssisəni dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq qurumlarla və digər hüquqi və fiziki şəxslərlə münasibətlərdə təmsil edir;

6.10.3. müəssisədə təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilini və onun monitorinqinin həyata keçirilməsini təmin edir;

6.10.4. müəssisədə sağlam və təhlükəsiz tədris mühitinin yaradılmasını təmin edir;

6.10.5. müəssisənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

6.10.6. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün tabe olduğu dövlət orqanına (qurumuna) təkliflər verir və sənədlər (o cümlədən, müəssisənin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;

6.10.7. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində (Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlini və ayrılmış büdcə vəsaiti çərçivəsində xərclər smetasını müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) ilə razılaşdırmaqla təsdiq edir;

6.10.8. müəssisənin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını təsdiq edir;

6.10.9. müəssisənin işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə (bu Nümunəvi Nizamnamənin 6.11-ci və 8.7-ci bəndləri nəzərə alınmaqla), müəssisənin işçiləri barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə dair qərarlar qəbul edir;

6.10.10. müəssisənin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

6.10.11. Pedaqoji Şuranın qərarlarını təsdiq edir, onun və digər idarəetmə orqanlarının qərarlarını həyata keçirir;

6.10.12. özünün və müəssisənin digər vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

6.10.13. Pedaqoji Şura qarşısında müəssisənin tədris məsələlərinə, tabe olduğu dövlət orqanı (qurumu) qarşısında müəssisənin cari fəaliyyətinə dair hesabatlar verir;

6.10.14. müəssisənin işçilərinə vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

6.10.15. müəssisənin əmlakından bu Nümunəvi Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir, bu Nümunəvi Nizamnamənin 4.1.52-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

6.10.16. bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində müəssisənin adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən, təsisçinin razılığı ilə müəssisənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri müəssisənin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

6.10.17. müəssisənin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı komissiyalar və işçi qruplar yaradır;

6.10.18. müəssisənin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

6.10.19. kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

6.10.20. müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

6.10.21. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür;

6.10.22. müəssisənin cari fəaliyyəti ilə bağlı digər idarəetmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

6.11. Müəssisədə sayı həmin müəssisənin nizamnaməsi ilə müəyyən edilmiş direktor müavinləri vardır. Direktor müavinlərini, direktorun təqdimatı əsasında müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) təyin edir. Direktor olmadıqda müəssisənin fəaliyyətinə rəhbərliyi tabe olduğu dövlət orqanı (qurumu) tərəfindən müəyyən edilən direktor müavini həyata keçirir.

6.12. Müəssisədə vəzifələrin tutulması təyinolunma yolu ilə həyata keçirilir və müəssisənin direktorunun əmri ilə (bu Nümunəvi Nizamnamənin 6.11-ci və 8.7-ci bəndləri nəzərə alınmaqla) rəsmiləşdirilir.

6.13. Şagirdlərin, təhsilverənlərin və digər işçilərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında", "Ümumi təhsil haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının qanunları, müəssisənin nizamnaməsi və daxili intizam qaydaları ilə, eləcə də müəssisə ilə əmək münasibətləri olan şəxslərə münasibətdə eyni zamanda Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla bağlanılan əmək müqavilələri ilə tənzimlənir.

6.14. Müəssisədə psixoloji-tibbi-pedaqoji komissiya təşkil edilir.

6.15. Müəssisədə psixoloji-tibbi-pedaqoji komissiya hər 6 (altı) aydan bir şagirdin reabilitasiya prosesinin dinamikasını nəzərdən keçirir və həmin müəssisənin rəhbərliyinə bu barədə məlumat verir. Şagirdin reabilitasiya prosesinin dinamikasında müsbət nəticələr müəyyən edildikdə, müəssisənin rəhbərliyi tərəfindən həmin müəssisənin yerləşdiyi ərazi üzrə Komissiyaya şagirdin müəssisədən vaxtından əvvəl buraxılması barədə təkliflə müraciət edilir.

6.16. Qapalı tipli müəssisədə psixoloji-tibbi-pedaqoji komissiya tərəfindən 3 (üç) ay ərzində şagirdin diaqnostikası keçiriləndən sonra onun reabilitasiya müddəti müəyyən edilir.

6.17. Şagird müəssisəyə daxil olarkən onun tibbi-pedaqoji reabilitasiyasının, habelə psixoloji reabilitasiyası və psixoloji korreksiyasının dərəcəsini və dinamikasını müəyyənləşdirmək üçün xüsusi vərəqə açılır. Xüsusi vərəqə şagirdin müəssisədə qaldığı bütün müddət ərzində psixoloq tərəfindən doldurulur. Bu vərəqəyə diaqnostik müayinə və müşahidələrin nəticələri, şagirdin təhsili, əməyi, ictimai fəaliyyəti və digər şagirdlərlə, valideynləri və ya digər qanuni nümayəndələri ilə, pedaqoqlarla qarşılıqlı münasibəti, onlarla ünsiyyəti haqqında qeydlər daxil edilir.

6.18. Şagirdlərə tibbi xidmətin (ümumi pediatriya, psixiatrik, nevroloji) göstərilməsi üçün tibb müəssisələri tərəfindən müəssisəyə tibb heyəti təhkim edilir. Tibb heyəti inzibati və pedaqoji heyətlə birlikdə müalicə-profilaktika tədbirlərinin keçirilməsi, sanitariya-gigiyena normalarına riayət edilməsi, şagirdlərin qidalanmasının rejimi və keyfiyyəti üçün məsuliyyət daşıyır.

6.19. Müəssisədə şagirdlərə tətbiq edilmiş mükafatlandırma (həvəsləndirmə) və intizam tədbirləri, şagirdlər tərəfindən vurulan maddi zərər və intizamın pozulması haqqında qeydiyyat kitabı tərtib edilir və saxlanılır.

6.20. Şagird barədə toplanılan bütün məlumatlar konfidensial hesab edilir və onların hüquqlarının və qanuni mənafeyinin ziddinə istifadə edilə bilməz.

6.21. Ümumi təhsil pilləsinin ümumi orta və tam orta səviyyələri üzrə bitirən şəxslərə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada müvafiq təhsil haqqında dövlət sənədi – attestat verilir.

6.22. Müxtəlif səbəblərdən ümumi orta və ya tam orta təhsil səviyyəsini başa vurmayan şəxslərə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada arayış verilir.

6.23. Şagirdlər tam dövlət təminatındadırlar. Müəssisələrdə təhsil alan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş şəxslər qanunla müəyyən edilmiş bütün imtiyaz və güzəştlərdən istifadə edirlər.

## 7. Müəssisənin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

7.1. Müəssisəsinin nizamnamə fondu_____(____) manatdır.

7.2. Müəssisənin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.

7.3. Müəssisənin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

7.4. Müəssisə ona verilmiş əmlakdan yalnız nizamnaməsi ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Müəssisənin əmlakından təhsildənkənar məqsədlər üçün istifadə qadağandır.

7.5. Müəssisənin özəlləşdirilməsinə, müəssisənin ərazisində profilindən kənar müəssisələrin yerləşdirilməsinə və fəaliyyətinə, hər hansı şəxsin (şəxslərin) məskunlaşdırılmasına yol verilmir.

7.6. Bu Nümunəvi Nizamnamənin 7.3-cü bəndi nəzərə alınmaqla, müəssisə əmlakı üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə tabe olduğu dövlət orqanı (qurumu) ilə razılaşdırmaqla həyata keçirir.

7.7. Müəssisə mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsinə görə məsuliyyət daşıyır. Müəssisənin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti tabe olduğu dövlət orqanı (qurumu), yaxud onun səlahiyyət verdiyi şəxs həyata keçirir.

7.8. Müəssisənin maddi-texniki bazası və təhsil infrastrukturu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə uyğun olmalıdır.

7.9. Müəssisə “Təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş mənbələrdən maliyyələşdirilir. Bu mənbələrdən, həmçinin sahibkarlıq fəaliyyətindən əldə olunan vəsait və digər əmlak müəssisəyə büdcədən ayrılan vəsaitin məbləğinə təsir göstərmir.

7.10. Müəssisə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normativlərə uyğun olaraq tabe olduğu dövlət orqanı (qurumu) tərəfindən maliyyələşdirilir.

7.11. Müəssisə bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

7.12. Müəssisə “Təhsil müəssisəsinin əlavə gəlir əldə etmək məqsədi ilə məşğul olmasına yol verilən sahibkarlıq fəaliyyəti növlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 yanvar tarixli 10 nömrəli Qərarında qeyd olunmuş sahibkarlıq fəaliyyəti növləri və innovasiya fəaliyyəti ilə məşğul ola bilər. Bunun üçün müəssisə tabe olduğu dövlət orqanının (qurumunun) razılığı ilə təsərrüfat cəmiyyətləri yaradır və ya onlarda iştirak edir.

7.13. Müəssisənin bu Nümunəvi Nizamnamənin 7.2-ci bəndində qeyd olunan mənbələrdən (büdcə vəsaiti istisna olmaqla) daxil olan vəsait hesabına əldə etdiyi əmlak qanunvericiliyə uyğun olaraq onun mülkiyyətinə daxil edilir.

7.14. Müəssisənin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, şagirdlərin və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir.

7.15. Nazirliyin tabeliyində olan müəssisə fəaliyyətindən əldə etdiyi vəsaiti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə

edilən vəsaitdən (o cümlədən tutulan xidmət haqlarından) istifadə Qaydası”na uyğun olaraq xərcləyir. Dövlət adından yaradılan publik hüquqi şəxsin tabeliyində olan müəssisə büdcədənkənar mənbələrdən əldə olunan vəsaitin xərclənməsi istiqamətlərini sərbəst (bu Nümunəvi Nizamnamənin 7.14-cü bəndi nəzərə alınmaqla) müəyyən edir, təhsilverənlərə və şagirdlərə maddi yardım göstərir.

7.16. Müəssisədə dövlət hesabına göstərilən xidmətlərin dəyəri Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi maliyyə normativləri ilə müəyyən edilir. Müəssisənin ödənişli təhsil xidmətlərinin və bu Nümunəvi Nizamnamənin 7.12-ci bəndində nəzərdə tutulmuş fəaliyyətlə bağlı müvafiq məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

## 8. Müəssisənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

8.1. Müəssisənin fəaliyyətinə nəzarəti tabe olduğu dövlət orqanı (qurumu), həmçinin nizamnaməsi ilə müəyyən edilmiş qaydada müəssisənin idarəetmə orqanları həyata keçirirlər.

8.2. Müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) müəssisədə plan üzrə və ya plandankənar yoxlamalar keçirə bilər.

8.3. Müəssisənin fəaliyyətinə dair illik hesabat tabe olduğu dövlət orqanına (qurumuna) təqdim edilir.

8.4. Müəssisənin fəaliyyətinə nəzarətin digər formaları “Təhsil haqqında”, “Publik hüquqi şəxslər haqqında”, “Ümumi təhsil haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilir.

8.5. Müəssisə idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

8.6. Müəssisənin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) kənar auditor təyin edir və onun audit hesabatını qəbul edir.

8.7. Müəssisədə daxili audit bölməsi yaradıldıqda, müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) həmin bölmənin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

## 9. Müəssisədə uçot və hesabat

9.1. Müəssisə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

9.2. Müəssisə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

## 10. Müəssisənin yenidən təşkili və ləğv edilməsi

Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəssisənin yenidən təşkilini və ləğv edilməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, tabe olduğu dövlət orqanı (qurumu) həyata keçirir.